# Azərbaycanın haqq işini dəstəkləyənlər durmadan artır

> ***Bu müharibə bütün dünyaya Azərbaycan xalqının nə qədər böyük xalq olduğunu göstərdi – yenilməz xalq, dəmir iradəli xalq, müzəffər xalq, müzəffər ordumuz! Fəxr edirik xalqımızla, ordumuzla!...***
>
> **Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa 10 noyabr 2020-ci il tarixli müraciətindən**



Dünya dövlətlərinin böyük əksəriyyəti Avropanın enerji təhlükəsizliyinə xüsusi töhfələr verən Azərbaycanın ərazi bütövlüyünün bərpasını arzulayırdılar. Beynəlxalq aləmdəki tərəqqipərvər siyasətçilər BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul olunmuş qətnamələrinin icra olunmasını xahiş və tələb edirdilər. Avropa qurumları ATƏT-in Minsk qrupunun həmsədrlərinin “status-kvo qəbuledilməzdir”, “ölkələrin ərazi bütövlüyü bərpa olunmalıdır” kimi bəyanatlarının reallığa çevrilməsini səbirsizliklə gözləyirdilər. Dünyanın mədəniyyət xadimləri mədəniyyətlərarası dialoqa mükəmməl dəstək verən Azərbaycanın münaqişəyə cəlb edilməsinin əleyhinə idilər. Region xalqları multikulturalizmin ocağı kimi tanınan Bakının üzləşdiyi işğal probleminin aradan qaldırılmasına çağırırdılar. Bütün bu arzu və istəklərin reallaşmasını Azərbaycan Prezidenti, rəşadətli ordumuz və qəhrəman əsgərlərimiz xalqın böyük dəstəyi ilə reallaşdırdı.

Yazının əvvəlində qeyd etdiyim bu həqiqətlərin hamısının yekunu sayıla biləcək bir faktı xatırlatmaq istəyirəm. Belə ki, həmin həqiqətlər Azərbaycan Respublikasının Xarici İşlər naziri Ceyhun Bayramovun Avropa İttifaqının xarici və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi Cozef Borel ilə telefon danışığının da əsas mövzusu olub. Xarici İşlər Nazirliyinin Mətbuat Xidməti İdarəsindən verilən məlumata görə, tərəflər bölgədə mövcud olan son vəziyyət, tam atəşkəs və hərbi əməliyyatların dayandırılması ilə əlaqədar üçtərəfli bəyanatın imzalanması, o cümlədən, BMT TŞ qətnamələri əsasında Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin ətraf rayonlarından Ermənistan silahlı qüvvələrinin çıxarılması, məcburi köçkünlərin öz yurdlarına geri qayıtması, humanitar xarakterli mübadilələrin həyata keçirilməsi, eləcə də yeni kommunikasiya xətlərinin inşası da daxil olmaqla, bütün kommunikasiyaların açılması kimi məsələlər ilə bağlı fikir mübadiləsi apardılar.

Bu xəbərdə bizim üçün xüsusi əhəmiyyət kəsb edən əsas məqam ondan ibarətdir ki, Avropa İttifaqının ali nümayəndəsi noyabrın 10-da Azərbaycan Prezidenti, Ermənistan Baş naziri və Rusiya Prezidenti tərəfindən üçtərəfli bəyanatın imzalanmasını müsbət qiymətləndirib. O, razılaşmaya hörmətlə yanaşılmasının və onun icrasının təmin edilməsinin vacibliyini qeyd edib. Cozef Borel, həmçinin tərəflər arasında dialoqun davam etdirilməsinin zəruriliyini vurğulayıb.

Diqqət yetirin, Avropanın nüfuzlu qurumunun ali nümayəndəsi razılaşmanın icrasının təmin edilməsinin vacibliyini qeyd edir. Hamı bilir ki, bu məqamda söhbət Ermənistan tərəfinə ünvanlanan xəbərdarlıqdan gedir. Çünki adı çəkilən razılaşma Azərbaycanın ərazi bütövlüyünün bərpasını təmin edibsə, Bakı tərəfindən bu razılaşmanın icrasında heç bir problem ola bilməz. Ona görə də Avropa İttifaqı özünün etibarlı tərəfdaşı olan Azərbaycanın əldə etdiyi uğurları alqışlamaqla yanaşı, bu nailiyyətlərin qorunmasını da istəyir.

Yeri gəlmişkən, Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 27-dən noyabrın 10-dək dünyanın ən nüfuzlu kütləvi informasiya vasitələrinə geniş müsahibələr vermişdir. Bu müsahibələrin əksəriyyətində xüsusi olaraq vurğulamışdır ki, bizim Avropa İttifaqi ilə mükəmməl əməkdaşlığımız mövcuddur.

Dövlət başçımız hələ sentyabrda demişdir: “Azərbaycan Avropa İttifaqına üzv olan ölkələrin üçdə biri ilə strateji tərəfdaşlıq üzrə sənədlər imzalayıb. Bu da əməkdaşlığın səviyyəsini nümayiş etdirir. İki il öncə biz tərəfdaşlığın prioritetləri üzrə sənədi də imzaladıq. Bu da bizim əməkdaşlığımızın gələcək inkişafı üçün çox mühüm əhəmiyyət kəsb edir. Biz çox məmnunuq ki, həmin sənəddə Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərimizin toxunulmazlığı Avropa İttifaqı tərəfindən dəstəklənib. Bu, Ermənistanla Azərbaycan arasında münaqişənin həllinə çox haqlı və ədalətli yanaşmanın olduqca mühüm əlamətidir”.

Bəli, Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərimizin toxunulmazlığı Avropa İttifaqı tərəfindən daim dəstəklənirdi və ona görə də möhtəşəm qələbəmizi yüksək qiymətləndirənlərdən biri də məz bu qurumun ali nümayəndəsi oldu.

Dünya gördü ki, Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu Ermənistanın ardıcıl təxribatlarının və yeni işğal planlarının qarşısını almaq, torpaqlarımızı azad etmək məqsədilə sentyabrın 27-dən etibarən zəfər yürüşünə başladı. Qırx dörd gün davam edən hərbi əməliyyatlar nəticəsində Azərbaycan Ordusu Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın etdi, uzun illər ərzində işğal altında qalan Cəbrayıl, Qubadlı, Zəngilan, Füzuli rayonlarını, Xocavənd rayonunun böyük hissəsini, Laçın rayonunun bir sıra kəndlərini, Qarabağın incisi olan Şuşa şəhərini düşməndən təmizlədi. Beləliklə, 44 gün ərzində müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə ordumuz bütün dünyaya öz qüdrətini, gücünü nümayiş etdirdi.

Bu məqamda başqa bir faktı da yada salmaq istərdim. Belə ki. kütləvi informasiya vasitələrinin yaydığı məlumatda oxuyuruq ki, Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycanın ərazi bütövlüyünün bərpasını dəstəkləməklə yanaşı, Dağlıq Qarabağ münaqişəsinin də tamamilə həll olunduğunu xatırladıb. Yəni şimal qonşumuzun rəhbəri də ermənilərə xəbərdarlıq edir ki, bu məsələni üçlükdə həll etdik və bundan sonra Dağlıq Qarabağ məsələsini gündəliyə gətirməyin. Məlumatda oxuyuruq: “Vladimir Putin deyib: “Ümid edirəm ki, biz artıq “Dağlıq Qarabağ münaqişəsi” söz birləşməsindən istifadə etməyəcəyik”. Rusiya Prezidenti, həmçinin ümid etdiyini bildirib ki, tezliklə başqa məsələlərin, xüsusən humanitar mövzuların müzakirəsinə başlanılacaq.

> ***Bəli, bu gün bizim işğalçı Ermənistan üzərindəki möhtəşəm qələbəmizi, Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin təşəbbüsü ilə ortaya gələn üçtərəfli bəyanatın icrasını dəstəkləyənlərin, alqışlayanların sayı durmadan artır. Çünki insanlar haqqın, ədalətin zəfər çalmasından məmnundurlar. Dünyanın ən sivil xalqlarından olan azərbaycanlıların faşizm ideologiyası ilə silahlanmış Ermənistan tərəfindən iki əsr boyunca məhrumiyyətlərə düçar edildiyini hamı görür, lənətləyir, fəqət, konkret addımlar atmağa heç kəsin cürəti çatmırdı. Həmin cürəti, cəsarəti özündə tapan Azərbaycanın haqlı mübarizədə qazandığı qələbəni alqışlamağa isə indi çoxunun cəsarəti çatır.***

Başqa bir xəbərdə isə oxuyuruq ki, Böyük Britaniya dövləti də Dağlıq Qarabağda atəşin dayandırılmasını, Azərbaycanın ərazi bütövlüyünün bərpasını alqışlayanlar arasındadır. Belə ki, noyabrın 13-də Azərbaycan Respublikasının Xarici İşlər naziri Ceyhun Bayramov və Böyük Britaniyanın Avropa Qonşuluğu və Amerika üzrə dövlət naziri Vendi Morton arasında telefon danışığı olub. Tərəflər 10 noyabr 2020-ci il tarixli tam atəşkəs və hərbi əməliyyatların dayandırılması ilə əlaqədar imzalanmış üçtərəfli bəyanat ətrafında fikir mübadiləsi apardılar.

Telefon danışığı zamanı BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin ətraf rayonlarından Ermənistan silahlı qüvvələrinin çıxarılması, məcburi köçkünlərin öz evlərinə geri qayıtması, humanitar xarakterli mübadilələrin həyata keçirilməsi və bütün kommunikasiyaların açılması kimi məsələlər müzakirə edilib. Xanım Vendi Morton bölgədə atəşkəsi və bütün hərbi əməliyyatların dayandırılmasını elan edən üçtərəfli bəyanatın imzalanmasını alqışlayıb. O, razılaşmanın həyata keçirilməsinin vacibliyini vurğulayıb.

Bundan başqa, dünya siyasətçilərinin və planetin bütün qitələrini təmsil edən görkəmli ziyalıların Azərbaycan Prezidentinə göndərdikləri təbrik məktubları da davam edir. Biz isə bu sətirləri Böyük Britaniya parlamentinin İcmalar Palatasının üzvü, Azərbaycanla dostluq qrupunun sədri Bob Bləkmənin Azərbaycan Prezidentinə göndərdiyi təbrik məktubundan bəzi cümlələr ilə tamamlayırıq:

“Sizi və Azərbaycan xalqını işğal altında olan torpaqlarınızın, xüsusilə də noyabrın 8-də Şuşa şəhərinin işğaldan azad edilməsində Azərbaycan Silahlı Qüvvələrinin qazandığı qələbə münasibətilə səmimi qəlbdən təbrik edirəm... Mən tam əminəm ki, Sizin rəhbərliyinizlə Şuşa şəhəri Azərbaycan mədəniyyətinin və incəsənətinin beşiyi kimi əvvəlki şöhrətini bərpa edəcək. Biz Böyük Britaniya – Azərbaycan parlamentlərarası dostluq qrupunun üzvləri olaraq, tarixi Şuşa şəhərinə səfər etməkdən şərəf hissi duyardıq.

Biz, həmçinin üçtərəfli razılaşmaya əsasən Ermənistan silahlı qüvvələrinin Qarabağdan tam və qeyd-şərtsiz çıxarılması barədə bəyanatı da ürəkdən alqışlayırıq. Cənab Prezident, müharibənin fəal fazasında təmkin və qətiyyət nümayiş etdirməyiniz hamı tərəfindən yüksək qiymətləndirilir. Biz Azərbaycanın Böyük Britaniya parlamentindəki dostları olaraq, Azərbaycanın haqlı mövqeyinin dünyaya çatdırılması istiqamətində səylərimizi bundan sonra da davam etdirəcəyimizi bir daha bəyan edirik. Biz azərbaycanlı məcburi köçkünlərinin öz doğma yurdlarına qayıdacağı günü səbirsizliklə gözləyirik”.

Gözəl arzudur. Britaniyalı parlamentarilər Şuşaya, məhz Bakıdan getmək istəklərini dilə gətirirlər. Başqa cür ola da bilməz. Çünki, Qarabağ Azərbaycandır!

*İttifaq MİRZƏBƏYLİ,*
*“Xalq qəzeti”*